İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTU

# İQTİSADİ ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU

(2022-2023-cü illər üzrə)

**İQTİSADİ İSLAHATLAR ELMİ TƏDQİQAT İNSTİTUTUNDA YERİNƏ YETİRİLMİŞ ELMİ-TƏDQİQAT İŞLƏRİNİN REFERATİV TOPLUSU (2022-2023-cü illər üzrə)**

*© İİETİ, Bakı, 2023*

# MÜNDƏRİCAT

**ÖN SÖZ .......... 4**

**2022-Cİ İL ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ** .......... 5

UKRAYNA MÜHARİBƏSİNİN TƏSİRİNİN AZADILMASI:AZƏRBAYCANA İƏT ÖLKƏLƏRİNDƏN ƏRZAQ MƏHSULU İDXALININ ARTIRILMASININ TƏHLİLİ .......... 5

ABŞ-ın RUSİYAYA QARŞI TƏTBİQ ETDİYİ SANKSİYALARIN ÖLKƏMİZƏ MÜMKÜN TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ .......... 5

AZƏRBAYCANDA AĞILLI ŞƏHƏR KONSEPSİYASININ İNKİŞAFI ÜZRƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN APARICI ROLU. .......... 6

**MONİTORİNG VƏ QİYMƏTLƏNDİRMƏLƏRİN APARILMASI** .......... 7

İSTEHLAKÇI İNAM İNDEKSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ .......... 7

**ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR** .......... 7

“RƏQƏMSAL İQTİSADİYYAT İZAHLI LÜGƏT”i .......... 7

NƏTİCƏ ƏSASLI MONİTORİNG VƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİ (METODOLOJİ TÖVSİYƏLƏR) .......... 7

**2023-CÜ İL ƏRZİNDƏ ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ** .......... 8

KÖLGƏ İQTİSADİYYATI SƏVİYYƏSİNİN MAKROİQTİSADİ, MONETAR VƏ VERGİ NƏZARƏTİ ASPEKTİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ KÖLGƏ İQTİSADİYYATININ AZALDILMASI ÜÇÜN TƏKLİFLƏRİN HAZIRLANMASI .......... 8

STANDARTLARIN STANDARTLARIN TƏTBİQİNİN İQTİSADİ ARTIMDA ROLU VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ .......... 8

RƏQƏMSAL İQTİSADİYYAT ÜZRƏ SORĞUNUN HESABATI .......... 9

**ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR** .......... 9

ELMİN ÖLÇÜLMƏSİ ELMİ HAQQINDA: SUALLARA CAVAB .......... 9

DƏYİŞƏN TİCARƏT VƏ İNVESTİSİYA: AZƏRBAYCANIN RƏQƏMSAL TRANSFORMASİYA YOLU .......... 10

# ÖN SÖZ

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi Elmi Tədqiqat İnstitutu 60 illik böyük bir tarixə və zəngin ənənələrə malikdir. İnstitutda aparılan elmi-tədqiqatlar ölkəmizdə makroiqtisadi sabitliyin qorunması və tənzimlənməsinin həyata keçirilməsi, davamlı inkişafın təmin olunması, regionların və sahibkarlığın inkişafı, qeyri-neft sektorunun, əsas etibarı ilə onun ixrac potensialının artırılması məqsədi ilə iqtisadi sahələrin diversifikasiya olunmuş inkişafı, mənzil-kommunal və infrastrukturun inkişafı istiqamətləri üzrə aparılan uğurlu siyasətin hədəflərinə uyğunlaşdırılmaqla, bu istiqamətlərə müvafiq qısa, orta və uzunmüddətli proqnoz və planların tərtib olunması üzrə model və usulların işlənilməsinə yönəldilmişdir. İnstitut milli iqtisadiyyatın müxtəlif sahələrinin və regionların davamlı inkişafına dair elmi-tətbiqi tədqiqatların aparılması, koordinasiya edilməsi, kadr hazırlığının və tədrisinin təşkili istiqamətlərində geniş fəaliyyət göstərir.

2020-ci ildə də İnstitut əsas fəaliyyət istiqamətini Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri", Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın Texnologiya və innovasiyalar üzrə işçi qrupunun 2020-ci il üzrə Fəaliyyət Planı, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Dövlət Proqramlarının icrası çərçivəsində müvafiq tədbirlər əsasında, Nazirliyin müvafiq şöbələri və struktur bölmələri ilə razılaşdırılmaqla qurmuşdur.

Təqdim olunan referativ t oplu İqtisadi Elmi Tədqiqat İnstitutunun 2022 və 2023-cü illərdə apardığı elmi-tədqiqat fəaliyyətinə həsr olunmuşdur. Topluda İnstitutda 2022-2023-cü illər üzrə yerinə yetirilmiş işlərin qısa xülasələri verilmişdir.

# 2022-Cİ İL ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ

## UKRAYNA MÜHARİBƏSİNİN TƏSİRİNİN AZADILMASI:AZƏRBAYCANA İƏT ÖLKƏLƏRİNDƏN ƏRZAQ MƏHSULU İDXALININ ARTIRILMASININ TƏHLİLİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*

Tədqiqatda Ukrayna müharibəsi nəticəsində dünya bazarında ərzaq məhsullarının qiymətlərinin artması fonunda Azərbaycanda vəziyyətin stabilləşməsi üzrə bəzi təhlillər aparılmışdır. Ukrayna müharibəsinin dünya və Azərbaycanın idxal bazarına təsirləri araşdırılmışdır. Azərbaycanın ən böyük məhsul idxalçısı olan Rusiya və Ukraynadan gətirilən idxal məhsullarının İƏT üzv dövlətlərinin əvəzləmək imkanları təhlil edilmişdir. İƏT üzv dövlətlərinin alternativ bazar qəbul edilə bilməsi sualı araşdırılmışdır. Nəticədə Beynəlxalq ticarət mərkəzinin Market Access Map, Export Potential Map və s. alətlərdən istifadə edərək İƏT üzv dövlətlərindən Azərbaycan üçün strateji ərzaq məhsulları üzrə yüksək potensiala malik üç dövlət (Türkiyə, Qazaxıstan və Pakistan) müəyyən edilmişdir.

## ABŞ-IN RUSİYAYA QARŞI TƏTBİQ ETDİYİ SANKSİYALARIN ÖLKƏMİZƏ MÜMKÜN TƏSİRLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*
***İcraçı:*** *Malik Mehdiyev*

Tədqiqat işində ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyaların ölkəmizə mümkün təsirlərini müəyyən etmək üçün neft-qaz sektoru, tranzit daşımaları gübrə qiymətləri, idxal və ixrac olunan məhsulların qiymət indeksləri, Azərbaycan-Rusiya ticarət dövriyyəsi, FAO-üzrə ərzaq məhsulları indeksi, dünya bazarında ərzaq məhsullarının dinamikası, Azərbaycanda bir sıra ərzaq məhsullarının qiymət dəyişməsi, ərzaq inflyasiyası və istehlak qiymətləri indeksi istiqamətlərində mövcud vəziyyətin təhlili aparılmışdır. Təhlil nəticəsində ABŞ-ın Rusiyaya tətbiq etdiyi sanksiyaların Azərbaycana aşağıdakı təsirləri müəyyən edilmişdir:

- Enerji böhranı hesabına istehsalın azalması dünyada bahalaşmaya gətirib çıxarmışdır ki, bu da Azərbaycanda bütün sahələrə təsir edir;
- Enerji böhranı və quru sərhədlərinin bağlanması səbəbindən quru, hava və dəniz daşınmaları qiymətlərinin artması sahibkarlara və vətəndaşlara geolokasiya çətinliyi

törədir və bahalaşmaya səbəb olur;

- Dünyada tranzit daşımaların gübrə qiymətlərinə təsiri, eləcə də baş vermiş enerji böhranı Azərbaycanda ərzaq və kənd təsərrüfatı məhsullarının bahalaşmasına gətirib çıxarır;
- Rusiyada gübrə qiymətlərinin artımı və enerji böhranı olmadığından ərzaq məhsullarının və kənd təsərrüfatı məhsullarının qiymətlərinin ucuz olması Azərbaycandan Rusiyaya bu məhsulların ixracını azaldır;
- Rusiyaya ixracda qeyri-neft, xüsusən kənd təsərrüfatı məhsullarının istehsalçıları və ixracatçılarının gəlirlərinin azalması səbəbindən Azərbaycan ixracatçılarının itkilərlə üzləşməsi baş verir;
- Rusiyada bank sektoruna tətbiq edilən sanksiyalar hesabına İT və digər xarici şirkətlərin yaradılması məqsədilə Ermənistana investisiya axının artması baş verir;
- Bank sektoruna tətbiq edilən sanksiyalar Azərbaycanla Rusiya arasında pul köçürmələrində sahibkarlara müəyyən problemlər yaradır;
- Rusiyada və Ukraynada Azərbaycandan gedən miqrantların pul köçürmələrinin azalması, bəzi hallarda isə iş yerlərinin itirilərək ölkəyə geri qayıtmalarına səbəb olur.
- Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 30 iyun 2021-ci il tarixli 192 nömrəli qərarı ilə təsdiq edilmiş "Yol-nəqliyyat hadisələri nəticəsində dəyən sosial-iqtisadi və ekoloji zərərin qiymətləndirilməsi və hesablanması Qaydaları"nın 4.4-cü bəndinə əsasən 2020-ci il üzrə yol-nəqliyyat hadisələri nəticəsində dəymiş zərərin qiymətləndirilməsi əsasında hesabat hazırlanmışdır.

## AZƏRBAYCANDA AĞILLI ŞƏHƏR KONSEPSİYASININ İNKİŞAFI ÜZRƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN APARICI ROLU.

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*

Ağıllı şəhər konsepsiyasının tətbiq edilməsi və yaratdığı iqtisadi imkanları, infrastrukturu və xidmətləri, idarəetməni təkmilləşdirmək imkanı açıqlanmışdır. Ağıllı şəhər konsepsiyasının əsas xüsusiyyətləri, inkişaf istiqamətləri və təkamülü, standartları və həlləri, tətbiqini şərtləndirən amillər və manelər müəllif tərəfindən təhlil edilmişdir. Rəqəmsal texnologiyaların tətbiqi ilə bağlı müxtəlif ölkələrin təcrübəsi öyrənilmişdir. Hazırda inkişaf etmiş ölkələrdə

innovativ texnologiyalardan, süni intellektdən və maşın öyrənilmələrindən, böyük məlumatların emalından, əşyalar internetindən (IoT) istifadə məsələləri təhlil edimişdir.

# MONİTORİNG VƏ QİYMƏTLƏNDİRMƏLƏRİN APARILMASI

## İSTEHLAKÇI İNAM İNDEKSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*

***İcraçılar:*** *Afaq Qasımova, Səfər Hüseynov*

2021-ci ilin aprel ayından 2022-ci ilin mart ayları ərzində sorğular aparılması yolu ilə iqtisadiyyatın mövcud vəziyyəti ilə əlaqəli olaraq istehlakçı qiymətləndirmələrini özündə ehtiva edən istehlakçı inam indeksi hesablanmışdır. İndeks özəl indekslərin ədədi ortalaması kimi hesablanmışdır: fərdi maliyyə vəziyyətində cari və gözlənilən dəyişikliklər, iqtisadi vəziyyətdə cari və gözlənilən dəyişikliklər, böyük alış-veriş üçün əlverişli şərtlər. Hər bir ay özündən əvvəlki aylarla müqayisəli təhlil edilmiş və müvafiq arayışlar hazırlanmışdır.

# ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR

## “RƏQƏMSAL İQTİSADİYYAT İZAHLI LÜGƏT”i

***Müəllif:*** *Arzu Hüseynova*

Təqdim olunan lüğət rəqəmsal iqtisadiyyata aid bütün terminləri əhatə etmir. İzahlı lüğətdə cəmi 607 termin və terminlərin ingilis və rus tərcümələri verilmişdir.
Kitabda 4 formada lüğət yerləşdirilmişdir: 1. Azərbaycan dilində izahlı lüğət; 2. İngilis-Azərbacan terminlər lüğəti; 3. Rus-Azərbaycan terminlər lüğəti; 4. Azərbaycan -İngilis-Rus terminlər lüğəti. Kitabda lüğətlər istifadəçinin işini asanlaşdırmaq üçün verilmişdir.

## NƏTİCƏ ƏSASLI MONİTORİNG VƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİ (METODOLOJİ TÖVSİYƏLƏR)

***Müəllif:*** *Faiq Qasımlı*

Kitabda ən yaxşı dünya təcrübəsi əsasında nəticə əsaslı 10 mərhələli monitorinq və qiymətləndirmə sistemi verilmişdir. Kitabın sonunda termenoloji qlossari təqdim edilib.

# 2023-CÜ İL ƏRZİNDƏ ELMİ-TƏDQİQAT VƏ ANALİTİK TƏHLİL İŞLƏRİ

## KÖLGƏ İQTİSADİYYATI SƏVİYYƏSİNİN MAKROİQTİSADİ, MONETAR VƏ VERGİ NƏZARƏTİ ASPEKTİNDƏN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ KÖLGƏ İQTİSADİYYATININ AZALDILMASI ÜÇÜN TƏKLİFLƏRİN HAZIRLANMASI

***İcraya məsul rəhbər:*** *Malik Mehdiyev*

***İcraçılar:*** *Şükür Quliyev, Elsevər Lətifli, Əfraim Məmmədov və s.*

Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2023-cü il tarixli 3770 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023 – 2025-ci illər üzrə Milli Fəaliyyət Planı”nın icrası haqqında iqtisadiyyat nazirinin 20 aprel 2023-cü il tarixli 3-21/3-1-F-72/2023 nömrəli əmrinin 2.1 və 2.2 bəndləri ilə kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi məqsədilə məlumatların toplanılaraq təhlillərin aparılması və nəticəsi üzrə kölgə iqtisadiyyatının azaldılması üçün təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim olunması İqtisadi Elmi Tədqiqat İnstitutuna (ESRI) tapşırılmışdır.

Bu əsasla, ESRI tərəfindən kölgə iqtisadiyyatı səviyyəsinin makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilməsi üzrə nəzəri metodoloji əsaslar tədqiq edilmiş və beynəlxalq təcrübə öyrənilmişdir. Kölgə iqtisadiyyatının həcminin müəyyən edilməsi məqsədilə məlumat bazasının yaradılması üçün əlaqədar qurumlarla görüşlər keçirilmiş və məlumatların toplanması üçün sorğular təqdim edilmişdir. Əldə edilmiş statistik məlumatlar, sorğuların nəticələri və s. əsasında məlumat bazası formalaşdırılmışdır. Kölgə iqtisadiyyatının qiymətləndirilməsi 3 model əsasında aparılmışdır. Kölgə iqtisadiyyatı makroiqtisadi, monetar və vergi nəzarəti aspektindən qiymətləndirilmişdir. Alınan nəticələr təhlil edilmiş, yerli və xarici ekspetlər tərəfindən əvvəl alınan nəticələrlə müqayisə edilərək yekun nəticə əldə edilmişdir. Kölgə iqtisadiyyatının həcminin azaldılması istiqamətində müxtəlif aspektlərdən təkliflər işlənilib, müvafiq qurumlara təqdim edilmişdir.

## STANDARTLARIN STANDARTLARIN TƏTBİQİNİN İQTİSADİ ARTIMDA ROLU VƏ ONUN QİYMƏTLƏNDİRİLMƏSİ

***İcraya məsul rəhbər:*** *Arzu Hüseynova*

***İcraçılar:*** *Malik Mehdiyev*

Tədqiqat işinin  əsas məqsədi standartların tətbiqinin ölkənin iqtisadi artımına təsirini qiymətləndirmək və standartların tətbiqi istiqaməti üzrə praktiki tövsiyələrin işlənməsidir.

Bunun üçün standartların tətbiqinin iqtisadi artımda rolunun qiymətləndirilməsinin metodoloji əsasları araşdırılmış, standartların tətbiqinin iqtisadi artımda rolunun qiymətləndirilməsi üzrə beynəlxalq təcrübə, qiymətləndirmə üzrə metodologiyalar öyrənilmiş, standartların tətbiqi üzrə normativ-hüquqi bazanın mövcud vəziyyəti təhlil edilmişdir. Standartların tətbiqinin iqtisadi artıma təsirinin qiymətləndirilməsi üçün məlumat baza formalaşdırılmış və qiymətləndirilmə aparılmışdır. Standartların tədbiqinin ÜDM-ə təsiri ölçülmüşdür. Alınan nəticələr və tövsiyələr ilkin nəticələrdir, gələcəkdə standartlaşmanın sahəvi təsirlərinin ölçülməsi də nəzərdə tutulur.
Əldə olunan nəticələr və normativ-hüquqi bazanın təhlili əsasında standartlaşmanın inkişaf etdirilməsi və standartların tətbqini artırmaq üçün tövsiyələr hazırlanmışdır. Tədqiqat işinin nəticə və tövsiyələri tətbiq üçün müvafiq orqanlara təqdim edilmişdir.

## RƏQƏMSAL İQTİSADİYYAT ÜZRƏ SORĞUNUN HESABATI

***İcraya məsul rəhbər:*** *Şükür Quliyev*
***İcraçılar:*** *İETİ-in işçiləri*

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2022-ci il tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planının 1.1.8-ci fəaliyyət istiqamətinin "rəqəmsal iqtisadiyyatın inkişafı üzrə strategiyasının hazırlanması və tətbiqi" bəndinin icrası əsasında ESRI tərəfindən Azərbaycanda rəqəmsallaşmanın vəziyyətinin öyrənilməsi üzrə üzbəüz sorğular keçirilmiş və nəticələri emal edilərək təhlil edilmişdir.
Sorğular ayrı-ayrı sahələrdə fəaliyyət göstərən müxtəlif kateqoriyalı şirkətlərlə aparılmışdır. Sorğuda əsas üstünlük istehsal sahəsində iri şirkətlərə verilmişdir. Sorğunun nəticələrinin emalının təhlili nəticəsində Azərbaycanda rəqəmsallaşma indeksi hesablanmış və rəqəmsallaşma səviyyəsi müəyyən edilmişdir.

# ELMİ VƏ PRAKTİKİ NƏŞRLƏR

## ELMİN ÖLÇÜLMƏSİ ELMİ HAQQINDA: SUALLARA CAVAB

***Müəllif:*** *Arzu Hüseynova*

Elmi inkişaf - qlobal dünyaya inteqrasiya prosesində nüfuzlu paya malikdir. İnkişaf ölçülən kəmiyyətdir. Kitabda "Elmin ölçülməsi elmi", "Elmi prosesin ölçülməsi nəyə lazımdır?", "Niyə

elmin ölçülməsi elmi populyaşıb?” - suallarına cavab axtarılıb və bu mövzuda verilən suallar cavablandırılıb. Gündəlik suallar bu məsələlərə bir daha qayıdılmasının vacıbliyinə dalələt edir.  Kitaba verilən suallara cavab olaraq bir daha elmin ölçülməsi üzrə əvvəl təqdim edilmiş (əsas anlayışlar, elmmetriya, biblimetriya, istinadlar və s. kimi) və yeni (almetriya, məqalənin strukturu, çap üçün nəşrlərin axtarılma yolları və s.) məlumatlar qısa verilbr.
Sonda Azərbaycanda elmin ölçülməsi məsələlərinin təkminləşdirilməsi üzrə təkliflər təqdim edilib.

## DƏYİŞƏN TİCARƏT VƏ İNVESTİSİYA: AZƏRBAYCANIN RƏQƏMSAL TRANSFORMASİYA YOLU

***Müəllif:*** *Vüqar Abbasov, Əfraim Məmmədov*

Türk Dövlətlərinin Rəsmi İqtisadi Siyasət Tədqiqat Mərkəzləri Şəbəkəsinin (ERCNET) töhfələri ilə hazırlanan və Türk Dövlətləri Təşkilatının Türk Akademiyası tərəfindən nəşr olunan "Türk iqtisadiyyatları üzrə 2023-cü il hesabatı – rəqəmsal ticarət və investisiya" tədqiqat sənədinin "Dəyişən ticarət və investisiya: Azərbaycanın rəqəmsal transformasiya yolu" başlıqlı III fəsli yazılmışdır.

**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi**

**İqtisadi Elmi Tədqiqat İnstitutu**

*Həsən Bəy Zərdabi Prospekti,196, AZ1122, Bakı şəhəri, Azərbaycan Respublikası,*
***Tel.:** +99412 4308933, **Faks:** +99412 4300215,*
***İnternet səhifə:** www. ier. az*